Azərbaycan Arxeologiyası Volume 25 № 1 2023, 8-20
Khazar University Press DOI: 10.5782/2218-0346.2023.25.1.8

# Xaraba Gilan və Aza şəhər yerlərinin inşaat keramikası

**Vüsalə Beydullazadə**
AMEA Arxeologiya və Antropologiya İnstitutu
beydullazade@gmail.com

**Açar sözlər:** Naxçıvan, Xaraba Gilan, Aza, orta əsrlər memarlıq, inşaat keramikası.

**Xülasə.** IX əsrin sonu - X əsrin əvvəllərində Azərbaycanda başlanan iqtisadi-mədəni inkişaf XII əsrdə özünün çiçəklənmə dövrünü keçirirdi. Bu inkişafda memarlığın xüsusi yeri vardır. Dünya inciləri sırasına daxil olan memarlıq abidələri mədəni inkişafın ən bariz maddi nümunələridir. Bu abidələrdə həndəsi ornamentlərdən ibarət mürəkkəb kompozisiyaların yaranmasına imkan verən, memarlığın yüksək inkişafının maddi sübutu olan inşaat keramikasının ən nəfis nümunələri dekorativ bişmiş kərpiclərdir. Müxtəlif həndəsi formalarda hazırlanmış dekorativ bişmiş kərpiclər türbələrin üzərində ən mürəkkəb ornamentlərin, ərəb əlifbasının kufi xətti ilə yazıların salınmasını asanlaşdırmaqla islam mədəniyyətinin özünəməxsusluğunu nümayiş etdirir. İnşaat keramikası içərisində ornament və yazılardan ibarət üzlük blokların bərkidildiyi möhkəm divarların tikintisində istifadə edilən və ümumiyyətlə, dövrün geniş yayılmış standart tikinti materialı olan kvadrat (20x20x5 sm) formalı bişmiş kərpicləri də xüsusi olaraq qeyd etmək lazımdır.

Böyük Səlcuqlu imperiyası dövründə (1037-1190) hər yerdə olduğu kimi Azərbaycanda da iqtisadiyyat və mədəniyyət özünün çiçəklənmə dövrünü keçirirdi. Maddi mədəniyyətin əsas sahələrindən biri olan memarlıq da bu dövrdə özünəməxsus inkişaf yolu keçmiş, ölkənin müxtəlif bölgələrində öz dəsti-xətti ilə seçilən memarlıq məktəbləri yaranmışdı. Belə məktəblərdən biri də banisi dahi memar Əcəmi Əbubəkr oğlu olan Naxçıvan memarlıq məktəbi idi. Üslub yaxınlığına və yayıldığı ərazilərə görə onu, tarixdə Naxçıvan-Marağa memarlıq məktəbi adlandırırlar. Naxçıvan-Marağa memarlıq məktəbinin bir çox abidələri dövrümüzə qədər çatmasa da, onlar haqqında səyahətçilərin və rəssamların əsərlərində məlumatlar vardır. Belə abidələrdən biri XIX əsrin ortalarında dağıdılmış Naxçıvandakı XII əsrə aid memarlıq kompleksidir [5 s.35].

Naxçıvan-Marağa memarlıq məktəbi bişmiş kərpiclə inşa olunmuş tikililəri ilə məşhur idi. Yerli gildən kvadrat formasında (əsasən 20x20x5 sm ölçülərində) hazırlanmış bu kərpiclər bişirildikdə müxtəlif rəng çalarları (sarı, qırmızımtıl, çəhrayı, yaşılımtıl) alırdı. Binaların fasadı, çoxüzlü tikililərin isə hər tərəfi həndəsi naxışlarla bəzədilmiş bloklarla – "memarlıq köynəyi" ilə örtülürdü. Bu üzlük blokların hazırlanmasında dekorativ bişmiş kərpiclərdən və kaşılardan istifadə olunurdu.

Naxçıvan-Marağa memarlıq məktəbinin ən möhtəşəm nümunələri Naxçıvan şəhərindəki Yusif Küseyir oğlu (1162) və Möminə Xatın (1186), Marağa şəhərindəki Qırmızı günbəz (1148) və Göy günbəz (1194) türbələridir. Naxçıvan şəhərinin bazar meydanında yerləşən məscid, bazar və bir neçə tikilidən ibarət kompleks (XII əsr) isə, yuxarıda qeyd etdiyimiz kimi, XIX əsrin ortalarında dağıdılmışdı [5 s.35] Azərbaycanın orta əsr şəhərlərinin az-çox salamat şəkildə dövrümüzə qədər saxlanmış tikililəri əsasən dini abidələrdir ki, bunu da dini mövhumatın yeganə müsbət cəhəti saya bilərik.

Naxçıvan memarlıq məktəbi iki inkişaf dövrü keçirmişdir. Birinci mərhələ XII -XIII əsrin birinci rübü, ikinci mərhələ isə XIV-XV əsrləri əhatə edir [2 s.128].

Əcəmi Əbubəkr oğlu Naxçıvan şəhərindən başqa (1162-ci və 1166-1187-ci illər arasında) iki türbə də Kiran şəhərində inşa etmişdi. Təəssüf ki, hazırda bu türbələrin ancaq sərdabə hissəsi Xaraba Gilan şəhər yerində (Orta əsr Kiran şəhərinin xarabalıqları) dağıdıllmış şəkildə qalmaqdadır. Xaraba Gilan türbələri Əcəmi yaradıcılığında 25 illik fasilənin olmadığını sübut edir [7 s.90-21]

Naxçıvan memarlıq məktəbi abidələri sübut edir ki, XII əsrdə Azərbaycan şəhərlərində inşaat sənətində müxtəlif peşə sahələri fəaliyyət göstərirdi. Orta əsrlərdə monumental binaların tikintisində memardan başqa "bənna", "mühəndis" və "memar" da çalışırdı. Bu sənət sahiblərinin hər birinin vəzifəsi və müvafiq olaraq fəaliyyət dairəsi var idi. Mürəkkəb quruluşa malik inzibati, ictimai və dini tikililərin əvvəlcə planı çəkilir, tikintisinə hansı materialdan nə qədər istifadə olunacağı, nə qədər işçi qüvvəsi lazım olacağı əvvəlcədən hesablanırdı. Tikililərin özülü daşdan olduğu üçün hansı karxanadan, nə qədər daş gətiriləcəyi, hansı kürələrdə nə vaxt, nə qədər gəc istehsal olunacağı, onun qatqıları, türbələrin əsas inşaat materialı olan bişmiş kərpiclərin kəsilməsi, bişirilməsi böyük vəsait və işçi qüvvəsi tələb edirdi. Bu səbəbdən bölgədə bir çox sahələrin fəaliyyəti bu məsələlərin həllinə yönəldilirdi.

Müminə Xatun türbəsində və Xaraba Gilan şəhər yerindəki 1 saylı türbədə divarların eni 1,5 m, ornamentli üzlüyün qalınlığı isə 12 sm-dir. Dekorativ kərpiclərdən gəc məhlulunda yığılmış üzlüklər blok formasında hazırlanmış sonradan hörgü qalxdıqca divara bərkidilmişdir. Hazırlanma üsuluna görə ornamentli bloklar elmi ədəbiyyatda "memarlıq köynəyi" də adlanır. "Memarlıq köynəyi"ndəki ornamentlərin və yazıların salınması üçün müxtəlif formalı, çox keyfiyyətli bişmiş dekorativ kərpiclər hazırlanmışdır. Burada yazıların nöqtələri, qoşa nöqtələri belə dekorativ bişmiş kərpicdəndir. Hərflər bütün deyil, hissələrlə hazırlanmışdır. Bəzən bir hərf bir neçə hissədən ibarətdir. Bu hərfin bir qəlibdə hazırlanmasının çətinliyindən asılı deyil, əksinə kiçik dekorativ hissələr müxtəlif həriflərin yığılmasına imkan vermişdir. Başqa sözlə, düz xətt formasında olan dekorativ kərpicdən ona uyğun formalı həriflərin, həlqəvari və qövsşəkilli dekorativ kərpiclərdən isə onlara uyğun həriflərin yığılmasında istifadə olunmuşdur. Bişmiş dekorativ kərpiclər hazırlanarkən onların üz hissəsində ölçülərin dəqiq olmasına diqqət verilmişdir. Yazılarda istifadə olunan dekorativ bişmiş kərpiclərin həm formasında, həm də ölçülərində müəyyən fərqlər vardır. Bu da yazının ümumi kompozisiyada tutduğu yerlə əlaqədar olmuşdur.

Dekorativ bişmiş kərpiclərin bir hissəsinin arxa tərəfi əldə bıçaqla yonulmuşdur. Bu onlar arasında əhəngkövrə məhlulunun daha qalın təbəqə əmələ gətirməsinə və üzlük blokların daha möhkəm olmasına imkan vermişdir. Maraqlıdır ki, bu dövrdə ictimai binaların, məscidlərin və sarayların interyerində gəcdən tökülmüş yazılar dəbdə olsa da, amma türbələrdə fasad və üzlüklərin epiqrafik mətnlərin hərfləri, həndəsi ornamentlər hazırlanarkən əhəngdən yalnız bərkidici maddə kimi istifadə edilmişdir. Bu dekorativ bişmiş kərpiclərin əhəngdən daha uzun ömürlü olması ilə bağlıdır. İnteryerdə isə gəcdən tökülmüş medalyonlardan və s. istifadə olunmuşdur.

Üzlük blokların hazırlanması üsulu E.Yakobstal tərəfindən təsvir olunmuş və ondan sonra gələn memarlar tərəfindən qəbul edilmişdir [4 s.35]. İ.B. İbrahimli Xaraba Gilan türbələrinin üzlüklərindən bəhs edərkən onların başqa bir fərqli üsulla hazırlandığını qeyd edir. Onun fikrincə, düz yerdə qoyulmuş dördbucaqlı çərçivənin içərisinə müəyyən səviyyəyə qədər əhəngkövrə məhlulu tökülmüş dekorativ bişmiş kərpiclər onun içərisinə lazım olan ardıcıllıqla düzülərək aralarına qatqılı gəc məhlulu tökülmüş sonra düz lövhə ilə çərçivənin səviyyəsinə qədər sıxılıb kipləşdirilmiş, daha sonra isə araları gəclə düzəldilərək naxışlanmışdır [6 s.61]. Yeri gəlmişkən, dekorativ bişmiş kərpiclərin arasında, gəc üzərinə salınan naxışların dərin semantik mənası

olmuşdur. Naxışlar içərisində "öz" – svastika – çərxi-fələk, qövs, paralel xəttlər kimi təsvirlərə rast gəlinir. Memarlıq köynəyində - üzlüklərdə işlənən qırmızımtıl dekorativ kərpiclər müxtəlif həndəsi formalarda hazırlanmışdır (tablo 1; 2).

Memarlıq kitabələri içərisində dördbucaqlı, altıbucaqlı və səkkizbucaqlı medalyonlar xüsusi qrup təşkil edir. Burada üç üsulla hazırlanmış medalyonlara rast gəlirik. Birinci tip medalyonlar dördbucaqlı bişmiş kərpic üzərində qəlibdə hazırlanmışdır. Onlar mətnə uyğun hissələrlə tökülmüş və çox keyfiyyətlə bişirilmişdir. Ehtimal ki, bu medalyonlar da abidə üzərindəki mürəkkəb həndəsi ornamentin mərkəzində və yaxud kompozisiyaların birləşmə nöqtəsində yerləşmişdir.

Altıbucaqlı medalyonlar əsasən kaşıdan hazırlanmışdır. Təqribən 2,0-2,5 sm qalınlığında altıbucaqlı kaşı plitənin üzərinə, qəhvəyi rəngli şirlə yazı, simmetrik olaraq salındıqdan sonra qalan yerləri mavi rəngli şirlə örtülərək bişirilmişdir. Bu yazılar estetik cəhətdən gözəl görünsələr də onların əsas qüsuru yazıların kaşı üzərində möhkəm oturmamasıdır. Yazıların mətnini və ya sözün mənasını kaşıların üzərində saxlanmış hərflərin yerlərinə görə müəyyən etmək mümkündür. Maraqlıdır ki, mavi rəngli şir kaşıların üzərinə başqa rənglərdən daha möhkəm yapışır. Belə ki, yazılar tökülsə də onların yeri mavi şir fonunda asanlıqla seçilir.

Üçüncü tip yazılar da kaşı üzərində, lakin tamamilə fərqli üsulla salınmışdır. Onlar əsasən iki eyni ölçülü dörbucaqlının simmetrik kəsişməsindən əmələ gələn səkkizbucaqlı formasındadır. Kaşı plitənin üzərində müxtəlif rənglərlə fırça ilə, nəfis şəkildə yazı və naxış salınmış, sonra isə üzəri rəngsiz şir təbəqəsi ilə örtüldükdən sonra bişirilmişdir. Bu medalyonlar çox keyfiyyətli olub olduqca gözəl görünürlər. Onların üzərindəki yazıların bir qismi "qızıl suyu" ilə yazılmışdır. Ümumiyyətlə, Xaraba Gilan şəhər yerinin inşaat keramikası çoxçeşidli olub yüksək keyfiyyətdə hazırlanması ilə seçilir.

1221-ci ildə monqollar Naxçıvanın bütün şəhər və kəndlərini darmadağın etmiş, əhalisini qılıncdan keçirmişdilər. 1225-ci ildə monqollara məğlub olan Xarəzmşah Cəlaləddin Naxçıvanı tutur. 1231-ci ildə monqollar Naxçıvanı yenidən işğal və qarət etdikdən sonra yandırırlar [3 s. 97-101]. Monqolların dağıdıcı hücumlarından sonra Azərbaycanın hər yerində olduğu kimi Naxçıvanda da sənətkarlıq, o cümlədən memarlıq tənəzzülə uğradı. Kiran şəhəri monqolların iki hücumundan sonra qismən bərpa olunsa da sonra tədricən tərk edildi.

XIV əsrin əvvəllərində Xaraba Gilan şəhər yerinin cənubunda yerləşən Aza qəsəbəsi inkişaf edərək şəhərə çevrilmişdi. Şəhər Gilançayın hər iki sahilini tutmuşdu. Təəssüf ki, yaxın tarix olsa da Aza şəhərinin bir çox tikililəri dövrümüzədək çatmamışdır. Bu tikililərdən ən mühümü və möhtəşəmi N. Xanıkovun da 1853-cü ildə görüb təsvir etdiyi minarədir. Diametri 16 m olan minarə bişmiş kərpic və əhəngkövrə ilə işlənmişdi. Hazırda, aşağı hissəsindən bir neçə metr hündürlüyündə dağılmış vəziyyətdə qalır. V.M. Sısoyev yazır ki, N. Xanıkovun yazdığına görə bu qüllə Naxçıvanlı usta Şeyx Cühənnah oğlu tərəfindən inşa edilib və hicri VI əsrə aiddir, lakin mənim fikrimcə qüllə VIII əsrə aiddir [5 s.197].

Haqqında bəhs olunan qüllədən başqa Gilan çayın sağ sahilində Aza şəhər qəbristanlığında XIV-XVI əsrlərə aid üç türbə olmuşdur. Onlarda ikisinin yerüstü hissəsi uçmuş, yalnız sərdabə hissələri dağıdılmış vəziyyətdə saxlanmışdır. Birinin isə türbə hissəsi dağıdılmış vəziyyətdə qalır. Bu abidələrin hamısı bişmiş kərpiclə işlənmiş, kaşılarla bəzədilmişdir.

Aza orta əsr şəhərinin tikililərinin əksəriyyəti daş, çiy və bişmiş kərpic və möhrə ilə inşa olunmuşdur. Daş və çiy kərpicdən olan binaların inşasında bərkidici maddə kimi daha çox palçıqdan (gil məhlulu) istifadə olunsa da, bişmiş kərpiclə olan tikililərin hamısından, bu tikililərin daşdan olan özüllərində və daş tikililərin bir hissəsinin inşasında bərkidici maddə kimi əhəngkövrədən (qatqılı gəcdən) istifadə olunmuşdur. Belə tikililərə Narınqaladakı bişmiş kərpicdən olan dairəvi tikili, beştağlı Aza körpüsü, N.Xanıkovun təsvir etdiyi məşhur Aza minarəsi, hamam və Der künbəzi aiddir. Bundan başqa, çiy kərpicdən olan yaşayış evlərinin və ictimai tikililərin də içərisi gəclə suvanmışdır [2 s.128-141].

Orta əsrlər boyu inşaat keramikasının hörgüsündə qatqılı gəcdən istifadə olunmuşdur. XIV-XVI əsrlərdə Aza şəhətində istifadə olunan gəc, şəhərdən bir neçə kilometr şimalda – Bal dərəsində yerləşən kürələrdə istehsal olunmuşdur. Burada iki böyük gəc kürəsi Xaraba Gilan arxeoloji ekspedisiyası tərəfindən aşkar edilib öyrənilmişdir.

Aza orta əsr şəhər yerinin dövrümüzə qədər az-çox yaxşı saxlanmış memorial abidələri qəbirüstü sənduqələr və türbələrdir. İki türbədən yalnız birinin divarları qalmışdır. Türbə ərazisində yerləşdiyi kəndin adı ilə xalq arasında "Der günbəzi", "Der türbəsi" adı ilə tanınır. Aza şəhərinin türbələri Naxçıvan memarlıq məktəbinin monqol işğalları və dağıntılarından sonrakı inkişaf mərhələsinə aiddir [6 s.128-141]. Naxçıvan memarlıq məktəbi abidələri içərisində Der türbəsi ilə tam analoji oxşar türbəyə rast gəlinməsə də,

yaxın ərazidə - Arazın cənub sahilində, Duzal kəndi ərazisində əsas elementləri Der türbəsinin memarlığına uyğun gələn bir türbə vardır. Türbə planda düzgün səkkizbucaqlı biçimdə olub yerüstü kameradan və yeraltı sərdabə hissəsindən ibarətdir [1 s.333-334]. Hər iki türbənin əsas oxşar cəhətləri: Birinci, Duzal türbəsi də Der türbəsi kimi səkkiz üzlüdür. İkinci, hər iki türbə bişmiş kərpiclərlə sadə üslubda işlənmişdir, üzlüklərə mürəkkəb ornamentlər salınmamışdır. Üçüncü, ən əsası isə bu türbədə də Der türbəsində olduğu kimi, kaşılar abidənin yuxarı hissəsinə enli zolaq şəklində salınmışdır. Hər iki türbənin inşasında bir rəng kaşıdan qapının başında və türbənin yuxarısındakı zolaqda istifadə edilmişdir. Qeyd edək ki, ikinci Der türbəsinin naxışları da Duzal türbəsinin naxışları ilə eyni rəngdə olmuşdur. Der türbələrinin inşa tarixləri arasında o qədər də böyük zaman fərqi olmamışdır. Kaşılarının rənginə görə ikinci Der türbəsi birinci türbədən bir qədər əvvəl inşa olunmuşdur. Ümumiyyətlə, Aza şəhəri memarlıq abidələrinin hamısında iki rəng kaşıdan istifadə olunmuşdur ki, bu da həmin abidələrin bir-birinə yaxın dövrdə inşa olduğunu göstərir [2 s.133].

**Nəticə.** Beləliklə tədqiqatlar nəticəsində aydın olur ki, Xaraba Gilan və Aza şəhər yerlərinin tikililərində inşaat keramikasından məscidlərin, türbələrin, inzibati binaların, divarların, müxtəlif təyinatlı tikililərdə günbəz və tağların inşasında istifadə olunmuşdur. İnşaat keramikası içərisində bişmiş kərpiclər kəmiyyətinə görə çoxluq təşkil edir. Bişmiş kərpiclər içərisində təyinatından asılı olaraq müxtəlif həndəsi formada hazırlanmış dekorativ kərpicləri xüsusilə qeyd etmək lazımdır. Məhz, onların sayəsində qülləli türbələri bəzəyən mürəkkəb həndəsi naxışlardan ibarət kompozisiyalar yaratmaq mümkün olmuşdur.

Orta əsr Naxçıvan memarlıq məktəbinin dövrümüzə gəlib çatmış abidələri ictimai, dini və memorial binaların bədii tərtibatında inşaat keramikasından geniş istifadə edildiyini sənədləşdirir.

## Ədəbiyyat


1. Əliyev Q. Başlanğıcların başlanğıcı: Naxçıvan-Marağa memarlıq formalarının mahiyyəti. İstanbul, Akademi Titiz Yayınları, 2015, ... s.
2. İbrahimli B. Naxçıvanın orta əsr şəhərləri: AZA. (tarixi-arxeoloji tədqiqat). Bakı, “Avropa” nəşriyyatı, 2020, 348 s.
3. Vəlixanlı N.M. Azərbaycan VII-XII əsrlərdə: tarix, mənbələr, şərhlər. Bakı: “Elm və təhsil” nəşr., 2016, 480 s.

4. Саламзаде А. М., Мамедзаде К.И. Памятники на Араксе. Баку, Элм, 1979, с.35
5. Сысоев В.М. Нахичевань на Араксе и древности Нах. АССР. Известия АЗКОМСТАРИСА, выпуск №4, тетрадь 2, Баку, 1929, с. 197
6. Ибрагимов Б.И. Средневековый город Киран. Баку-Москва. 2000, - 176 с.
7. Ибрагимов Б.И. Нововыявленный мавзолей XII в. в Хараба Гилане. Доклады Академии Наук Азербайджанской ССР. Том XI, №7, 1984, с. 90-91

## Summary

## Construction ceramics from the ancient settlements of Kharaba Gilan and Aza



**Vusala Beydullazada**



The economic and cultural development that began in Azerbaijan at the end of the 9th century and the beginning of the 10th century was in its heyday in the 12th century. Architecture has a special place in this development. Architectural monuments included in the list of world pearls are the most obvious material examples of cultural development. Decorative baked bricks are the most exquisite examples of construction ceramics, which allow the creation of complex compositions of geometric ornaments in these monuments, and are material evidence of the high development of architecture. Decorative baked bricks made in various geometric shapes demonstrate the uniqueness of Islamic culture by facilitating the creation of the most complex ornaments and inscriptions in the Kufic line of the Arabic alphabet on the tombs. A special mention should be made of the square (20x20x5 cm) baked bricks, which were used in the construction of solid walls to which facing blocks containing ornaments and inscriptions were fixed in construction ceramics, and which were generally a widespread standard building material of the time.


**Key words:** Nakhchivan, Kharaba Gilan, Aza, architecture, construction ceramics, baked brick.

## Резюме

## Строительная керамика из средневековых городищ Хараба Гилан и Аза

### Вусале Бейдуллазада

Экономическое и культурное развитие, начавшееся в Азербайджане в конце IX — начале X веков, достигло своего расцвета в XII веке. Особое место в этом развитии занимает архитектура. Памятники архитектуры края, включенные в список жемчужин мира, являются наиболее яркими свидетелями культурного развития. Декоративные обожженные кирпичи — изысканные образцы строительной керамики, позволяющие создавать в этих памятниках сложные композиции геометрического орнамента и являющиеся вещественным свидетельством высокого развития архитектуры. Декоративные кирпичи, изготовленные в различных геометрических формах, демонстрируют уникальность исламской культуры, способствуя созданию на мавзолеях сложнейших орнаментов и надписей куфического почерка арабского алфавита. Особо следует упомянуть обожженные кирпичи квадратной формы (20х20х5 см), которые использовались при возведении массивных стен, к которым крепились облицовочные блоки с геометрическим орнаментом и надписями. Декоративные обожжённые кирпичи были широко распространенным строительным материалом средневекового зодчества.


**Ключевые слова:** Нахчыван, Хабара Гилан, Аза, архитектура, строительная керамика, обожжённый кирпич.




**Tablo 1**




**Tablo 2**







**Tablo 3**

















**Tablo 4**